**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№362/9** **28 dekabr 2023-cü il**

**Auditorlar Palatasının saytında sorğular və ekspertizalar kitabxanasının yaradılması barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 2.8-ci "Auditorlar Palatasının saytında sorğular və ekspertizalar kitabxanasının yaradılması" bəndinin icrasına dair Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi (Q.Əhmədov), İctiamiyyətlə əlaqə və informasiya şöbəsi (Z.Almazov) tərəfindən Palatanın rəsmi internet səhifəsində "Sorğular və ekspertizalar kitabxanası" bölməsinin yaradılmasına dair hazırlanmış məlumatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditorlar Palatasının saytında sorğular və ekspertizalar kitabxanasının yaradılması" barədə məlumat nəzərə alınsın (əlavə olunur).
2. Auditorlar Palatası sədrinin müşavirlərinə (F.Qarayev, N.Talıbov), Palatanın daxili auditoruna (Ş.Əsgərova) və Palatanın struktur bölmələrinə (E.İbrahimov, V.Cavadov, Q.Əhmədov, E.Behbudova, R.Cəfərli, Z.Almazov, H.Paşa, M.Hüseynova, N.İsmayılova) tapşırılsın ki, sorğular və ekspertizalar kitabxanasına aid olan materiallar Palatanın rəsmi internet səhifəsində yerləşdirilməsi üçün İctimayyətlə əlaqə və informasiya şöbəsinə (M.Hüseynova, Z.Almazov) təqdim edilsin.
3. Bu qərarın mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**